**Sevinc Fazil qızı Əliyeva**
**Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası, baş müəllim.**
**E-mail: sevinc-aliyeva-80@list.ru**
**UOT:7:338.2; JEL:Z20;Z28.**

# Azərbaycanda Olimpiya idman komplekslərinin fəaliyyətinin müasir vəziyyətinin təhlili və qiymətləndirilməsi

***Xülasə***

*Tədqiqatın məqsədi – hazırkı şəraitdə ölkəmizdə olimpiya idman komplekslərinin fəaliyyətinin müasir vəziyyətinin təhlil olunması və qiymətləndirilməsindən ibarətdir. Olimpiya idman hərəkatı kifayət qədər qədim tarixə malikdir. Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra milli olimpiya hərəkatı formalaşdırmışdır və Milli Olimpiya Komitəsi yaradılmışdır. Ölkədə son onilliklərdə istifadəyə verilən Olimpiya idman komplekslərinin fəaliyyəti araşdırılmış və təhlil olunmuşdur. Olimpiya idman komplekslərinin yeniyetmələrin və gənclərin milli ruhda yetişmələri üçün strateji əhəmiyyət kəsb etdiyi əsaslandırılmışdır. Bu idman komplekslərində olan fəaliyyətsizlik hallarına və nöqsanlara diqqət yetirilmişdir. Olimpiya idman komplekslərinin inkişaf etdirilməsi və idman iqtisadiyyatının formalaşdırılması, bununla bağlı məsələlərin təkmilləşdirilməsi üzrə tövsiyələr verilmiş və təkliflər hazırlanmışdır. Tədqiqatın metodologiyası formasında – müxtəlif iqtisadi metodlardan, ilk növbədə təhlil, sintez, ümumiləşdirmə və qiymətləndirmə metodlarından istifadə edilmişdir. Olimpiya idman komplekslərindən səmərəli istifadə üzrə müxtəlif fikir və yanaşmalara da diqqət yetirilmişdir. Tədqiqatın tətbiqi əhəmiyyəti – məqalədə əldə olunan nəticələr və əsas müddəalardan Azərbaycanda Olimpiya idman komplekslərindən istifadənin səmərəliliyinin artırılmasında tədbirlərin işlənməsi və həyata keçirilməsində faydalı ola bilməsi imkanları ilə əlaqəlidir. Tədqiqatın nəticələri – Azərbaycanda Olimpiya idman komplekslərinin mövcud potensialından və infrastruktur imkanlarından səmərəli istifadə olunması mexanizmlərinin hazırlanması və tətbiqi ilə izah olunur. Tədqiqatın orijinallığı və elmi yeniliyi – nöqteyi-nəzərindən, Azərbaycanda Olimpiya idman komplekslərinin fəaliyyətinin təhlil olunması və qiymətləndirilməsi yeni araşdırma istiqamətlərindən biri kimi, kifayət qədər orijinallığı və aktuallığı ilə seçilir. Başlıca elmi yenilik isə müasir dövrdə Azərbaycanda Olimpiya idman komplekslərinin fəaliyyətinə müasir yanaşmaların təmin olunması və bununla bağlı adekvat tədbirlərin görülməsinin əsaslandırılmasıdır. Olimpiya idman komplekslərinin imkanlarından istifadə istiqamətlərinin modelləşdirilməsi və idman iqtisadiyyatı mexanizmlərinin formalaşdırılması, inkişaf etdirilməsi məsələləri araşdırılmış və bunlarla bağlı sistemli tədbirlərin görülməsinin vacibliyi verilmişdir. Yaxın illərdə Azərbaycanda Olimpiya idman komplekslərinin potensialından maksimum səmərəli sitifadə olunmasının zəruriliyi əsaslandırılmışdır.*

***Açar sözləri**: Azərbaycan, idman, bədən tərbiyəsi, Olimpiya hərəkatı, Olimpiya idman kompleksləri, Olimpiya komplekslərinin səmərəlilik problemləri, Olimpiya komplekslərinin inkişaf istiqamətləri, idman iqtisadiyyatı.*

## Giriş

Son illərdə Azərbaycanda sosial-iqtisadi inkişafın genişləndirilməsi və şaxələndirilməsi, bu istiqamətlərdə müxtəlif mövcud potensialın istifadə olunması məqsədilə önəmli addımlar atılmışdır. Bu sırada bədən tərbiyəsi və idmanın inkişafına xüsusi önəm verilir. Bədən tərbiyəsi və idmanın inkişafı dünyanın əksər ölkələrində əhalinin sağlamlığı, xüsusilə gənclərin milli və sağlam ruhda yetişdirilməsi üçün ciddi önəm kəsb edir. Bundan əlavə, hələ Sovetlər Birliyi dövründə bədən tərbiyəsinin kütləviliyini təmin etmək üçün çox ciddi, demək olar ki, fövqəl bir dövlətin hər bir yerində bununla bağlı tədbirlər görülərdi, hətta xüsusi

olaraq gündəlik istehsalat fiziki hərəkətləri təşkil olunardı. Məktəblərdə, idman təşkilatlarında bədən tərbiyəsinin kütləviliyi, yəni sağlam həyat tərzinin təbliği və təşviqi üçün davamlı işlər görülərdi. 1992-ci ilin yanvar ayının 14-də ümumrespublika konfransında Milli Olimpiya Komitəsi təsis olundu [1]. Belə ki, Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra bədən tərbiyəsi və idmanın inkişafı da xüsusi diqqət mərkəzində olmuşdur. Bundan əlavə, ölkə Prezidentinin 4 mart 2005-ci il Sərəncamı ilə hər il martın 5-i Azərbaycanda Bədən Tərbiyəsi və İdman günü kimi qeyd olunur [2]. Ümumiyyətlə, qeyd etmək lazımdır ki, Azərbaycan bir idman ölkəsi kimi hazırda dünyada xüsusi bir mövqe sərgiləməkdədir və bunu son onilliklərdə ölkəmizin beynəlxalq yarışlarda, beynəlxalq idman turnirlərində, xüsusilə Olimpiya oyunlarında əldə etdiyi nəticələrlə göstərmək olar. Azərbaycanda Olimpiya Hərəkatının inkişaf etdirilməsində ümummilli lider Heydər Əliyevin xüsusi xidmətləri olmuşdur. O, qeyd etmişdir ki, xalqımız, millətimiz genetik xüsusiyyətlərinə görə fiziki cəhətdən sağlam insanlardan ibarət xalqdır, millətdir. Heydər Əliyev hər hansı bir idman nəticəsinin dəyərini obyektiv qiymətləndirməyi daim təlqin etmiş, idmançının Olimpiya Oyunlarında iştirak etməsi faktının özünün böyük nailiyyət olduğunu vurğulamışdır [3, s.23]. İdmanın inkişafında və təbliğində Olimpiya Hərəkatı, Olimpiya idman növləri xüsusi önəm kəsb edir. Məhz bunları nəzərə alaraq, Azərbyacan hökuməti öz müstəqilliyini bərpa etdikdən sonra Olimpiya idman növləri üzrə təşkilatlanmağa, mərkəzi strukturun yaradılmasına, idman komplekslərinin yaradılmasına çox ciddi önəm vermişdir. Milli Olimpiya Komitəsinin Bakıda yeni idman-sağlamlıq kompleksinin 21 oktyabr 2000-ci ildə keçirilən təntənəli açılışı mərasimində AR Prezidenti Heydər Əliyev bildirmişdir ki, bu kompleks Azərbaycan Milli Olimpiya Kompleksinin idmançılara yeni bir hədiyyəsidir... Azərbaycanda Milli Olimpiya Hərəkatı böyük vüsət alıbdır, yüksək nailiyyətlər əldə edibdir [4]. Milli Olimpiya Komitəsi yaradıldıqdan sonra Olimpiya idman növlərinin geniş təbliği, ölkənin mərkəzi şəhərlərində və regionlarda Olimpiya idman komplekslərinin yaradılmasına və bununla bağlı sistemli tədbirlərin görülməsinə böyük önəm verilmişdir [5]. Ölkəmizdə Milli Olimpiya Komitəsinə uzun illərdir ki, ölkə Prezidenti İlham Əliyev rəhbərlik edir. Məhz onun rəhbərliyi nəticəsində Olimpiya komplekslərinin geniş şəbəkəsinin yaradılması istiqamətində çox önəmli işlər görülmüşdür.

**Azərbaycanda Olimpiya idman komplekslərinin fəaliyyətinin mövcud vəziyyəti və müasir reallıqlar**

Heydər Əliyev Fondunun fəallığı və ümumiyyətlə, ölkənin bu sahədə dövlət büdcəsi vasitəsilə müxtəlif fondlar vasitəsilə məqsədli şəkildə yönəltdiyi investisiyalar, əsaslı kapital qoyuluşu ayırdığı maliyyə vəsaitləri hesabına Olimpiya İdman Komplekslərinin tikintisinə çox böyük önəm verilmişdir. Xüsusilə, Bakı şəhərində bu istiqamətdə müxtəlif Olimpiya idman növləri üzrə çox iri və dünya səviyyəli komplekslər yaradılmışdır. Təsadüfi deyildir ki, hazırda paytaxımızda Olimpiya Stadionu, müxtəlif Olimpiya Kompleksləri, o cümlədən idman su növləri, digər fərdi, komanda növləri üzrə müasir infrastruktura malik idman kompleksləri yaradılmışdır. Məhz görülən tədbirlər nəticəsində Azərbaycan davamlı olaraq, Olimpiya oyunlarında fərqlənir və demək olar ki, həmişə yüksək nəticələr əldə etmişdir. Amma qeyd etmək istərdik ki, bu təkcə idman nəticələri ilə bağlı deyildir. Əvvəldə qeyd etdiyimiz kimi, bədən tərbiyəsinin kütləviliyi ilk növbədə əhalinin sağlamlığı, gənclərin milli və vətənpərvərlik ruhunda yetişdirilməsi ilə bilavasitə bağlıdır. Böyük Qarabağ Zəfəri bir daha bunun əyani sübutu kimi və əyani təzahürü kimi baxıla bilər. Məhz Böyük Qarabağ Zəfərində igid Azərbaycan əsgər və zabitlərinin rəşadəti mübarizliyi, qəhrəmanlığı iradəsi, sarsılmazlığı, cəsarəti və bütün çətin situasiyalardan çıxmaq qabiliyyəti, bu sahədəki hazırlığı, fiziki hazırlığı nəticəsində Azərbaycan Ordusu demək olar ki, dünya səviyyəsində dərsliklərə

düşə biləcək döyüşlər, küçə döyüşləri və yaxın məsafədən döyüşlər nümayiş etdirə bilmiş və nümunələr ortaya qoymuşdur. Təkcə Şuşa şəhərinin erməni faşistlərindən azad edilməsində hazırlıqlı Azərbaycan əsgər və zabitlərinin göstərdikləri rəşadət bütün dünyada əfsanə kimi təbliğ olunmaqda və baxılmaqdadır. Məhz gənclərin Olimpiya idman növlərinə, mərkəzdə və regionlarda yaradılmış Olimpiya İdman Komplekslərinə daha yaxşı və fəal şəkildə cəlb olunması və onların fiziki hazırlığına, vətənpərvər bir vətəndaş kimi formalaşmasına və inkişafına müsbət təsir göstərir. Olimpiya hərəkatının daha səmərəli olması üçün davamlı şəkildə həyata keçirilən tədbirlər diqqət çəkir. Dövlət tərəfindən müasir infrastruktura malik Olimpiya İdman Komplekslərinin tikintisinin təmin edilməsi üçün əlavə tədbirlər görülmüş və əsaslı vəsaitlər yatırılmışdır [6]. Bu kimi tədbirlərin nəticəsində müxtəlif Olimpiya İdman növləri üzrə yüksək nəticələrin əldə olunmasından ötrü ciddi zəmin yaradılmışdır. Hər Olimpiya oyunlarından əvvəl bu mötəbər yarışa gedən idmançılar və nümayəndə heyəti dövlət başçısı tərəfindən qəbul edilir və yola salınır, bu isə idmançıların yarışlardan əvvəl motivasiyasını xeyli artırır [7]. Digər tərəfdən, ölkəmizdə idmanın uğurla inkişaf etməsi, yüksək nəticələrin əldə olunması üçün kompleks tədbirlərin görülməsi öz əksini dövlətimizin idmanla bağlı siyasətində tapmışdır [8]. Eyni zamanda, əvvəldə qeyd etdiyimiz kimi, yeniyetmə və genclərin sağlam həyat tərzinin təmin olunması istiqanmətində davamlı işlər görülür. Məhz bu səbəbdən dövlətin gənclər siyasəti sağlam və intellektual nəslin formalaşmasında, gənclərin milli ruhda yetişməsində önəmli funksiyaları yerinə yetirir [9].

Ümumiyyətlə, əgər bunları ümumiləşdirməyə çalışsaq, ortada çox mühüm və ölkəmiz üçün milli sosial- iqtisadi və əslində milli inkişafı üçün çox vacib olan bir sıra amilləri ümumiləşdirə bilərik: Olimpiya İdman Kompleksləri ölkə əhalisinin sağlamlığının əsasında dayanan çox mühüm və ciddi idman infrastrukturudur; Olimpiya İdman Kompleksləri idmanın müxtəlif növləri üzrə gənclərin, yeniyetmələrin və uşaqların cəlb olunması, vətənpərvər vətəndaşların, vətənpərvər insanların hazırlanmasında çox ciddi funksiyaları yerinə yetirir; Olimpiya Komplekslərinin müxtəlif bölmələrində fəaliyyət göstərən gənclər, məktəblilər pis vərdişlərdən uzaq durur və onlar əslində sağlam ruhda böyüyür, fiziki cəhətdən güclü olur və sonrakı proseslərdə hazırlıqlı olmaları ilə diqqət çəkirlər; Olimpiya Komplekslərinin müxtəlif bölmələrində peşəkarlıq yolunda ilk addımları atan uşaqlar, yeniyetmələr və gənclərimiz sonradan peşəkar idmançı kimi yetişməkdə çox ciddi infrastruktur əldə etmiş olurlar və bu imkanlardan bəhrələnməklə, sonrakı proseslərdə ölkəmizi beynəlxalq turnirlərdə şərəflə təmsil edirlər, Azərbaycan bayrağını yüksəklərə qaldırırlar və Azərbaycan himnini bütün dünyaya səsləndirirlər; İdmanın kütləvi şəkildə təbliği və Olimpiya Komplekslərinin yaradılması həm də sosial-iqtisadi inkişafa əsaslı təkan verir, yeni iş yerləri yaradılır, əlavə dəyər yaradır; İdman Komplekslərinin fəaliyyəti nəticəsində müxtəlif istiqamətlər üzrə əlavə dəyər formalaşır və maliyyə mənbələri yaranır, eyni zamanda idman iqtisadiyyatının formalaşmasına və inkişafına təkan verir.

Son illərdə Azərbaycan gənclərin vətənpərvərlik ruhunda yüksək səviyyədə tərbiyə olunması, yeniyetmə və gənclərin milli ordu sırasında daha cəsarətli, layiqli gənclərimizin olması baxımından əvvəldə də qeyd etdiyimiz kimi Olimpiya Komplekslərinin mühüm əhəmiyyəti vardır. Hazırda Azərbaycan idmanı uğurlu inkişaf proseslərini və dövrünü yaşamaqla bərabər, həm də dünyanın müxtəlif ölkələrində və mötəbər yarışlarında ölkəmizin imicinin artırılması işinə xidmət edir [10]. İdmanın ümumən təbliğ edilməsi, bununla bağlı elmi-metodoko yanaşmaların işlənməsi və yayılması məsələləri də xüsusi diqqət mərkəzindədir. Bunun üçün müxtəlif idman ədəbiyyatlarının və metodiki vəsaitlərinin hazırlanması, ölkənin kitabxana şəbəkəsində yerləşdirilməsi tədbirləri görülmüşdür [11]. Ölkəmizdə mövcud idman qurğularının mümkün potensialından səmərəli istifadə edilməsi və

idman iqtisadiyyatının imkanlarının obyektiv olaraq qiymətləndirilərək reallaşdırılması tədbirlərinin görülməsi zərurəti vardır. Məhz bu kimi tədbirlərin və qiymətləndirmələrin sayəsində olimpiya-idman qurğularının ölkəmizdə yeri, əhəmiyyəti və səmərəliliyi barədə obyektiv mənzərənin formalaşdırılmasına və ümumiləşdirilməsinə imkan verər [12]. İdman komplekslərinin ayrı-ayrı hallarda qeyri-səmərəli istifadəsi barəsində müəyyən informasiyalar eşitmək mümkündür və bunlara bir az irəlidə qayıdacağıq. Hələ ki onu demək vacibdir ki, idman kompleksləri müəyyən idman növlərinin ölkəmizdə məqsədli şəkildə inkişaf etdirilməsi, həmin idman növlərinin populyarlığının artırılması, idman iqtisadiyyatının formalaşdırılması və genişləndirilməsi məqsədilə daha peşəkar idman qruplarının və klublarının yaradılması imkanlarına malikdirlər [13]. Xüsusilə, uşaqlar arasında idmanın müxtəlif növlərinə marağın artırılması, onların peşəkar idmançı karyeraları yolunda tələb olunan hazırlıqların keçməsi üçün müvafiq şəraitin təmin edilməsi və ən başlıcası pis vərdişlərdən kənar qalmaları üçün kifayət etməsi diqqət çəkir. Uşaq-gənclər İdman Məktəblərinin fəaliyyətinin dövrün tələblərinə uyğunlaşdırılması, onların idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi məsələləri də bu konteksdə ciddi önəm kəsb edir [14]. Digər tərəfdən, dünya təcrübəsinin, ilk növbədə, Avropa təcrübəsinin dərindən öyrənilməsi, fiziki tərbiyə sahəsində mütərəqqi metodikaların mənimsənilməsi və ölkəmizdə tətbiqi məsələlərin ön plana çıxarılması işləri aktuallığı ilə fərqlənirlər [15]. Burada bir sıra məsələləri xüsusi diqqət yönəltmək lazımdır. Müxtəlif rakurslardan baxsaq, əlbəttə, bu gün birmənalı şəkildə qeyd etmək mümkün deyildir ki, İdman Komplekslərinin fəaliyyətindən maksimum səmərəli şəkildə istifadə olunur və bu sahədə çox böyük uğurlar qazanmışdır, amma ümumən İdman Komplekslərinin fəaliyyəti nəticəsində yeniyetmə və gənclərimizin əksəriyyəti məqsədli şəkildə idmanın müxtəlif növləri ilə məşğul olmaq imkanları əldə etmişdirlər və bu onların həm fiziki, həm də mənəvi baxımdan hazırlıqlarının yüksəldilməsinə imkan vermişdir.

Bir neçə kəlmə də bu sahədə olan problemlərlə bağılı demək istərdik, əlbəttə, Olimpiya İdman Komplekslərinin fəaliyyətindən səmərəli istifadə olunması, zaman-zaman müxtəlif müzakirələrin mövzusuna çevrilmişdir idman sağlamlıq komplekslərinin və idman infrastrukturlarının demək olar hər birinin açılışında dövlət başçısı şəxsən iştirak etmişdir və dövlət başçısı orada öz söylədiyi nitqlərində Olimpiya Komplekslərinin Azərbaycan yeniyetmə və gənclərinin həyatında çox ciddi önəm kəsb etdiyini vurğulamış və onlardan səmərəli istifadə olunmasına və Azərbaycanda idmanın uğurla inkişaf etdirilməsi problemlərinə toxunmuşdur. Amma təhlillər göstərir ki, dövlətin bu sahədə apardığı siyasət və intellektual nəslin formalaşmasına xidmət edən Olimpiya Komplekslərinin fəaliyyətindən səmərəli istifadə edilməsi istiqamətində heç də mövcud potensialdan istifadə ilə tam olaraq uğurların əldə edilməsi söyləmək qeyri-mümkündür. Elə Olimpiya Kompleksləri vardır ki, demək olar ki, onlarda zəruri şəraitin olmasına baxmayaraq, idman bölmələrinin sayı azdır, gənclər, yeniyetmələr, uşaqlar bu idman bölmələrinə az cəlb olunurlar [16].

**Azərbaycanda olimpiya idman komplekslərindən istifadənin səmərəliliyinin artırılması problemləri və istiqamətləri**

Ölkəmizdə bəzi Olimpiya Kompleksləri öz təyinatı üzrə istifadə olunmur, müxtəlif dövrlərdə Olimpiya Komplekslərindən iaşə obyektləri, sauna kimi stifadə olunması bu kimi informasiyalar mətbuatda, kütləvi informasiya vasitələrində dolaşmaqdadır [17]. Təəssüf ki, Olimpiya İdman Komplekslərinin tikintisi üçün vəsaitdən, məqsədli dövlət investisiyalarından səmərəli istifadə edilməməsi halları da vardır və çox zaman idmana ayrılan pulların müəyyən hissəsi korrupsiya, rüşvət mənbəyinə və onun mənimsənilməsi ilə bağlı halların olmasına gətirib çıxarır. Hətta Milli Olimpiya Komitələrinin rəsmiləri belə öz çıxışlarında bəzi

Olimpiya Komplekslərində fəaliyyətsizlik diqqət çəkir. Məsələn, vitse-prezident Xəzər İsayevin bu yaxınlardakı bir çıxışına biz baxsaq, burada görmək mümkündür ki, açıq-aşkar etiraf edir ki, bəzi Olimpiya Komplekslərində fəaliyyətsizlik diqqət çəkir [18]. Digər tərəfdən qeyd edək ki, Milli Olimpiya Komitəsinin yaranmasından sonra Azərbaycanda idmanın inkişafına önəm verilir və idmanın təbliği sahəsində dövlət siyasəti davamlı siyasət şəkildə həyata keçirilir. Olimpiya hərəkatı və Olimpiya idman qurumlarının respublikamızın sosial-iqtisadi inkişafında yeri baxımından da bir çox məqamlar diqqət çəkir və burada qeyd etdiyimiz kimi milli vətənpərvərlik ruhunun inkişaf etdirilməsi ilə bərabər, həm də pis vərdişlərə, müxtəlif xəstəliklərə qarşı mübarizə, narkomaniyaya yeniyetmə və gənclərin meyilliyinin aradan qaldırılmasından söhbət gedir. Belə bir sual ortaya çıxır ki, bəs müasir Olimpiya İdman kompleksləri müasir tələblərə cavab verirmi? Əlbəttə, bu da müəyyən mənada araşdırmaların aparılmasını tələb edən istiqamətdir, amma ümumən demək olar ki, ölkəmizin mərkəzi şəhərlərində tikilən Olimpiya Kompleksləri, hətta regionlarda tikilənlər də əsasən, beynəlxalq standartalar cavab verir, yetər ki, bunlardan səmərəli istifadə olunsun, nəzərə alınsın və müəyyən mənada bu istiqamətdə görülən tədbirlər davamlı olsun və dövlət büdcəsindən əsaslı vəsait qoyuluşundan ehtiyat fondundan ayrılan Azərbaycan Prezidentinin müxtəlif vaxtlarda sərəncamları ilə Prezidentinin ehtiyat fondundan ayrılan vəsaitlərdən istifadənin məqsədli və təyinatı üzrə istifadə olunması məsələləri də xüsusi aktuallıq nümayiş etdirir və bunlar müəyyən vaxtlarda aparılan monitorinqlər, həm yoxlamalar, həm də audit yoxlamaları göstərir ki, bir çox hallarda bu vəsaitlərdən istiqaməti və təyinatı üzrə istifadə olunmur [19]. Buna görə də hesab edirik ki, ölkəmizdə Olimpiya İdman Komplekslərindən istifadə olunması məsələlərinə yeni yanaşmalar, yeni mexanizmlər idarəetmə formalar və daha şəffaf yanaşmalar təmin edilməlidir [20]. Bu məsələlər ümumiyyətlə, orta məktəbdən başlamalıdır, tam orta məktəb səviyyəsində Olimpiya idman növlərinə və Olimpiya İdman Komplekslərində olan infrastruktura diqqətin yönəldilməsi olduqca vacib məsələlərdir. Olimpiya Komplekslərinin fəaliyyətində müəyyən istiqamətlərdə olan resurslardan uşaqların və yeniyetmələrin istifadə etməsinə istiqamətləndirilməsi hesab edirəm ki, çox mühüm əhəmiyyət kəsb edir. Belə ki, onların əksəriyyəti bu vərdişə yiyələndikdən sonra, sonrakı mərhələlərdə, həm də gənclik dövrlərində öz sağlamlıqlarının, öz idman göstəricilərinin və fiziki hazırlıqlarının yaxşılaşdırmasına özləri daha ciddi nəzarət edəcəklər və maraqları artacaqdır.

Qeyd etmək lazımdır ki, Azərbaycanda son illərdə, ümumiyyətlə dünya səviyyəsində baş verən qlobal dəyişikliklər kontekstində ölkəmizdə əhalinin məşğulluğunun təmin olunması, əhalinin daha yaxşı yaşaması, sosial-iqtisadi gərginliyin artmaması üçün əhalinin tələb və təkliflərinə uyğun çoxfunksiyalı sosial infrastrukturun yaradılması proseslərinə xüsusi önəm verilir və bu sırada idman infrastrukturunun, əlbəttə, böyük əhəmiyyəti vardır. İdman infrastrukturu Olimpiya İdman Komplekslərinin fəaliyyətindən istifadə edilməkdə, həm də sosial-iqtisadi inkişafın mühüm istiqamətləri üzrə daha yaxşı nəticələrin əldə olunmasına gətirib çıxara bilər. Eyni zamanda, iqtisadi göstəricilərin yaxşılaşdırması da mümkündür. İdman iqtisadiyyatı anlayışı ölkəmizdə yenidir və bunun formalaşması olduqca vacibdir. Bu sırada bəzi amillərə diqqət yetirilməlidir:

- ⇨ İdman iqtisadiyyatının təbliği, təşkili və bununla bağlı uçotun aparılması, mexanizmlərin işlənməsi istiqamətində ölkəmizə xüsusi təlimlər və treyninqlər keçirilməli və Olimpiya İdman Komplekslərinin bazasında seminarlar, kütləvi tədbirlər, həyata keçirilməli, bu istiqamətdə mütəxəssislərin hazırlanması tədbirləri görülməlidir;

- İdman iqtisadiyyatının təşkili istiqaməti üzrə menecerlərin, xüsusi təlimatçıların hazırlanmasına böyük ehtiyac vardır, əvvəllər də idman təlimatçıları hazırlanırdı, amma indiki dövrdə bazar iqtisadiyyatı mexanizmlərini bilən və bu istiqamətdə menecerlik qabiliyyəti olan idman menecerlərin hazırlanmasına ciddi ehtiyac vardır;
- İdman iqtisadiyyatında uçotun və maliyyə hesabatlarının aparılması istiqamətində savadlılığın artırılması və xüsusilə idman komplekslərində bu sahəni bilən mütəxəssislərin olmasını vacib hesab edirik;
- Olimpiya İdman Komplekslərinin infrastrukturunda nəzərdə tutulan və genişləndirilməsi mümkün olan əlavə dəyər yaradan idman bölmələrinin inkişaf etdirilməsi və fəaliyyətinin təşkilinə ciddi önəm verilməli və bunun üçün dövlət-özəl sektor əməkdaşlığı, dövlət-özəl subyektlərlə əməkdaşlıq məsələləri ön plana çəkilməlidir, özəl idman strukturlarının Olimpiya İdman Komplekslərinə cəlb olunması, güzəştli şərtlərlə onlara icarəyə verilməsi, hətta müəyyən dövr üçün tamamilə pulsuz icarəyə verilməsi mexanizminin işlənməsinə və tətbiqinə ehtiyac vardır;
- Hesab edirik ki, Olimpiya İdman Komplekslərinin idarə olunmasında ənənəvi forma artıq özünü doğrultmur, məhz bu idarəetmənin zəifliyi və bürokratik olması, keçmiş sovet sistemində olması, stadionun rəhbəri, direktoru kimi yanaşmalardan irəli getmirlər;
- Olimpiya İdman Komplekslərinin idarə edilməsi çevik olmalı, bazar iqtisaiyyatı mexanizmlərinə əsaslanmalı və bazar tətbiqi alətlərini özündə ehtiva etməlidirlər. Bundan əlavə, Olimpiya İdman Komplekslərinin fəaliyyətinə nəzarət məsələləri Milli Olimpiya Komitəsinin səlahiyyətləri çərçivəsində yenidən baxılmalıdır.

Təəssüf ki, bu barədə görülən tədbirlər heç də ictimaiyyətə məlum deyildir. Hesab edirik ki, bunlar barəsində həm statistik məlumatların formalaşdırılması, ümumiyyətlə fəaliyyətin monitorinqinin aparılması ən azından ildə bir dəfə, ilin yekununda bu sahədə hesabatların dərc edilməsi olduqca vacibdir. Ümumiyyətlə, bu istiqamətdə hansı məsələlərin ön plana çəkilməsini vacib hesab edirik. İlk növbədə, Olimpiya İdman Komplekslərinin fəaliyyətini əks etdirən onların sosial-iqtisadi səmərəliliyini özündə ehtiva edən göstəricilər sisteminin işlənməsi və rəsmi olaraq, Dövlət Statistika Komitəsi və Milli Olimpiya Komitəsi tərəfindən təsdiq olunmasını vacib hesab edirik. Olimpiya İdman Komplekslərinin sosial-iqtisadi səmərəliliyi baxımından fəaliyyətinin genişləndirilməsi ilə məqsədli proqramların təşkili və bunların da dərc olunmasını, eyni zamanda infrastrukturun imkan verdiyi bütün istiqamətlər üzrə fəaliyyətin təşkili ilə bağlı davamlı tədbirlərin görülməsi vacibdir. Hər bir regionun özünəməxsus idman növlərinin inkişaf etdirilməsi istiqamətində Olimpiya İdman Komplekslərinin imkanlarından xüsusi istifadə formaları kimi baxılmalı və nəzərə almalıdır [21]. Yəni, ümumilikdə, hətta bu barədə Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə demişdir ki, Olimpiya İdman Komplekslərinin fəaliyyətində müəyyən dəyişikliklər gözlənilir, bu əlbəttə, Olimpiya İdman Komplekslərinin fəaliyyətində olan nöqsanlarla və fəaliyyətsizlikə bağlıdır [22].

**Nəticə**

Ölkəmizdə Olimpiya İdman Komplekslərinin potensialından səmərəli istifadə olunması məqsədi ilə bir sıra məsələlərə diqqət yönəldilməsini vacib hesab edirik:

- milli ənənələrə malik idman növlərinin, müasir idman növlərinin, həm də uşaqlar, yeniyetmə və gənclərimizin sağlamlığına çox ciddi təsir göstərən idman növlərinin inkişaf etdirilməsi üçün hətta bu gün mövcud olan Olimpiya İdman Komplekslərinin

profillərində yeniliklərin edilməsi, onların yenidən qurulması, dəyişikliklərin aparılması belə vacibdir;

- hesab edirik ki, bu tədbirlərin görülməsi yaxın perspektivdə ölkəmizdə fəaliyyət göstərən Olimpiya Komplekslərinin sosial-iqtisadi səmərəliliyinin artırılmasına, onların ölkə əhalisinin sağlamlığı, uşqaların, yeniyetmə və gənclərin milli ruhda böyümələri ilə yanaşı, həm də idman iqtisadiyyatının formalaşdırılmasına ciddi töhfələrin verməsi mümkün olacaqdır;
- ölkədə idman iqtisadiyyatının inkişafının təmin olunması ilə bağlı məqsədli tədbirlər görülməli və fəaliyyət strategiyası işlənib hazırlanmalıdır;
- Olimpiya İdman Komplekslərinin regional və beynəlxalq yarışların təşkilində fəal iştirakı təmin olunmalıdır, bu komplekslərin demək olar ki, bütün il boyu fəaliyyətinin qrafikləşdirilməsi və idman tədbirlərinin keçirilməsi xüsusi diqqət mərkəzində saxlanmalıdır.

**Ədəbiyyat**

1. İdman. Müstəqil Azərbaycan. https://republic.preslib.az/az_c7-6.html.
2. 5 mart - Bədən Tərbiyəsi və İdman Günüdür. 5-03-2022. https://tehsilforumu.az/umumi/2973-5-mart-beden-terbiyesi-ve-dman-gunudur.html.
3. Heydər Əliyev və Azərbaycanda Olimpiya Hərəkatı. Bakı – 2002. http://cls.az/front/files/libraries/533/books/145851194.pdf.
4. Milli Olimpiya Komitəsinin Bakıda yeni idman-sağlamlıq kompleksinin təntənəli açılışı mərasimində Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi - 21 oktyabr 2000-ci il. https://lib.aliyevheritage.org/az/6001636.html.
5. Azərbaycan Milli Olimpiya Komitəsinin yaranmasından 30 il ötür. 5 Aprel. https://idmantv.az/az/news/6209/azerbaycan-milli-olimpiya-komitesinin-yaranmasindan-30-il-otur.
6. 15 il öncə Azərbaycan Olimpiya Hərəkatında İlham Əliyev missiyası başladı. “Xalq qəzeti”. - 2012. 31 iyul. № 168. -s. 5. https://www.elibrary.az/docs/QAZET/qzt2012_1813.pdf.
7. Londonda keçiriləcək XXX Yay Olimpiya Oyunlarında iştirak edəcək Azərbaycan nümayəndə heyətini yolasalma mərasimi. http://www.anl.az/down/meqale/azerbaycan/2012/iyul/72.htm
8. Azərbaycanda idman uğurla inkişaf edir. 27 mart 2022. https://ikisahil.az/post/297506-azerbaycanda-idman-ugurla-inkishaf-edir-4.
9. Azərbaycan dövlətinin gənclər siyasəti sağlam və intellektual nəslin formalaşmasına xidmət edir. 26 Iyul 2014. https://www.azerbaijan-news.az/index.php/posts/detail/azerbaycan-dovletinin-gencler-siyaseti-saglam-ve-intellektual-neslin-formalasmasina-xidmet-edir-45382.
10. Ələddinqızı, N. Azərbaycan idmanı uğurlu inkişaf dövrünü yaşayır. https://sesqazeti.az/news/mia/891501.html.
11. İdmanın təbliğində kitbxanaların iştirakı: metodik vəsait / tərt. ed. M.Talıbova; ixtis. red. və bur. məs. K.Tahirov; red. G.Səfərəliyeva; M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası. - Bakı, – 2013.
12. Əliyeva, N.E. Azərbaycanda olimpiya hərəkatı və olimpiya – idman qurğularının respublikada yeri // Memarlıq Elmi əsərlər – 2018. № 1, – s. 14-18.
13. İdman kompleksləri. https://azerbaijan.az/related-information/167.
14. Şərifov, H.İ. Uşaq – Gənclər İdman Məktəblərinin idarə edilməsinin elmi- pedaqoji əsasları 5804.01 – ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi. P.ü.f.d. dissertasiyanın avt-tı. – Bakı: 2016.
15. Fiziki tərbiyə. Azərbaycanda Peşə Təhsili və Təliminin inkişafına Avropa İttifaqının dəstəyi. Bakı – 2019. – 108 s.
16. Bəzi Olimpiya İdman Kompleksləri müasir tələblərə cavab vermir. Tarix: 13-05-2022. https://newscenter.az/2022/05/13/bzi-olimpiya-dman-komplekslri-muasir-tlblr-cavab-vermir.html.
17. Azərbaycanda Olimpiya kompleksləri sauna kimi işlədilir. 10.08.2012. https://qafqazinfo.az/news/detail/bazerbaycanda-olimpiya-kompleksleri-sauna-kimi-isledilirb-22839.
18. İsayev, X.: "Bəzi olimpiya komplekslərində fəaliyyətsizlikdir". 21.03.2022. https://pia.az/xezer-isayev-bezi-olimpiya-komplekslerinde-fealiyyetsizlikdir--447627-xeber.html.

19. Həsənov, C. Dövlət büdcəsinin dövlət əsasli vəsait qoyuluşundan və ehtiyat fondundan Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə ayrılan vəsaitlərdən istifadənin auditinin nəticələri haqqında auditor hesabatının xülasəsi // Auditor tribunası. – 20 2020. №4, – s. 20-30.
20. Mahmudov, K. "İdmana ayrılan pullar çox zaman korrupsiya pulları olur". https://www.turan.az/ext/news/2021/9/free/Interview/az/7592.htm/001.
21. Olimpiya İdman Komplekslərində vəziyyət ürəkaçan deyil. https://news.milli.az/sport/978898.html.
22. Hüseynzadə, Ç. Olimpiya komplekslərinin fəaliyyətində dəyişiklik gözlənilir. 2 dekabr, 2021. https://report.az/ferdi/cingiz-huseynzade-olimpiya-komplekslerinin-fealiyyetinde-deyisiklik-gozlenilir/.

***Севиндж Фазил кызы Алиева***

***Анализ и оценка текущего состояния деятельности олимпийских спортивных комплексов в Азербайджане***

***Резюме***

*Цель исследования - проанализировать и оценить современное состояние олимпийских спортивных комплексов в нашей стране. Олимпийское спортивное движение имеет довольно древнюю историю. После восстановления независимости в Азербайджане сформировалось национальное олимпийское движение, был создан Национальный олимпийский комитет. Исследована и проанализирована деятельность олимпийских спортивных комплексов, введенных в эксплуатацию в стране в последние десятилетия. Обосновано, что олимпийские спортивные комплексы имеют стратегическое значение для развития подростков и молодежи в национальном духе. Обращено внимание на случаи бездействия и неисправности этих спортивных комплексов. Высказаны рекомендации и предложения по развитию олимпийских спортивных комплексов и формированию спортивного хозяйства. Методология исследования - являются различные экономические методы, прежде всего, метод анализа, синтеза, обобщения и оценки. Также внимание было уделено различным идеям и подходам к эффективному использованию олимпийских спортивных комплексов. Практическая значимость исследования - связана с тем, что полученные в статье результаты и основные предложения могут быть полезны при разработке и реализации мероприятий по повышению эффективности использования олимпийских спортивных комплексов в Азербайджане. Результаты исследования - объясняются подготовкой и применением механизмов эффективного использования существующего потенциала и объектов инфраструктуры олимпийских спортивных комплексов в Азербайджане. Оригинальность и научная новизна исследования – исследование, анализ и оценка деятельности олимпийских спортивных комплексов в Азербайджане рассматривается как одно из новых направлений исследований, обладающих оригинальностью и актуальностью. Главной научной новизной является современные подходы к деятельности олимпийских спортивных комплексов в Азербайджане и обоснование принятия в связи с этим адекватных мер. Исследованы вопросы моделирования способов использования объектов олимпийских спортивных комплексов, формирования и развития механизмов экономики спорта и указана важность принятия связанных с ними системных мер. Обоснована необходимость максимально эффективного использования потенциала олимпийских спортивных комплексов в Азербайджане.*

***Ключевые слова:*** *Азербайджан, спорт, физическое воспитание, олимпийское движение, олимпийские спортивные комплексы, проблемы эффективности олимпийских комплексов, направления развития олимпийских комплексов, экономика спорта.*

***Sevinj Fazil Aliyeva***

***Analysis and evaluation of the current activity state of Olympic Sports Complexes in Azerbaijan***

***Summary***

*Research purpose - consists of analyzing and evaluating the current activity state of the Olympic Sports Complexes in our country under current conditions. The Olympic sports movement has a rather ancient history. After regaining its independence, Azerbaijan formed a national Olympic movement and a National Olympic Committee was established. The activity of the Olympic Sports Complexes put into use in the country in recent decades was investigated and analyzed. The strategic importance of Olympic Sports Complexes in the development of teenagers and young people in the national spirit was substantiated. Attention was paid to the cases of inactivity and deficiencies in these sports complexes. Recommendations and proposals were made on the development of Olympic Sports Complexes and the formation of the sports economy, as well as the improvement of related issues. Research methodology- various economic methods, including primarily analysis, synthesis, generalization and evaluation were used. Attention was paid to various ideas and approaches on the effective use of Olympic Sports Complexes. The importance of the application of the research - the results and main findings obtained in the article can be useful in increasing the efficiency of the use of Olympic Sports Complexes in Azerbaijan, as well as in the development and implementation of action plan. The results of the research - are explained by the preparation and implementation of the mechanisms for effective use of the existing potential and infrastructure opportunities of the Olympic Sports Complexes in Azerbaijan. The originality and scientific novelty of the research - the analysis and evaluation of the activity of the Olympic Sports Complexes in Azerbaijan stands out as one of the new research directions due to its sufficient originality and relevance. The main scientific innovation is the provision of modern approaches to the activity of Olympic Sports Complexes in Azerbaijan in the present times and the justification of taking adequate measures in this regard. The issues of modeling the ways of using the facilities of the Olympic Sports Complexes and the formation and development of sports economy mechanisms were investigated and the importance of taking systematic measures related to them was provided. The need to use the potential of the Olympic Sports Complexes in Azerbaijan, in a short time, as effectively as possible was substantiated.*

***Keywords:*** *Azerbaijan, sports, physical education, Olympic movement, Olympic Sports Complexes, efficiency problems of Olympic Complexes, directions of development of Olympic complexes, sports economy.*

***Elmi redaktor: i.e.d., dos. Y.Məmmədov***
***Daxil olub: 06.07.2022.***
***Çapa qəbul olunub: 12.07.2022.***